

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 80 (21.490)

*3 may 2016-cı il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əvvəlcə Tərtər rayonundakı “N” saylı hərbi hissəyə gəlib.

Prezident İlham Əliyev hərbi hissənin qərargahı ilə tanış olub.

Hərbi hissə ilə tanışlıqdan sonra Ali Baş Komandan şəxsi heyətlə görüşüb.

Sonra Ali Baş Komandan təmas xəttində Ermənistan ordusunun törətdiyi təxribatların qarşısını alarkən şücaət göstərmiş döyüşçülərə hədiyyələr təqdim edib.

* * *

Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağılmış evlərə baxıblar.



## Naxçıvan şəhərdaxili turist marşrutu fəaliyyətə başlayıb





Qədim tarixi, zəngin mədəniyyəti, çoxsaylı tarixi-mədəni abidələri və müasir inkişafı Naxçıvan şəhərinin turizm imkanlarını ilbəil artırır. Tarixilik və müasirliyin vəhdətində inkişaf edən Naxçıvan şəhərinə hər il on minlərlə turist gəlir. Bu səbəbdən də turistlərin istirahətinin mənalı təşkili və muxtar respublika paytaxtı ilə yaxından tanış olmaları diqqət mərkəzində saxlanılır, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir.

Mayın 2-də Naxçıvan şəhərdaxili turist marşrutu fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Ali Məclisin Sədri demişdir: Hər bir ölkənin tarixi-mədəni abidələrinin tanıdılmasında turist marşrutlarının mühüm rolu vardır. Turizmin inkişaf etdiyi ölkələrdə bu məsələyə xüsusi diqqət yetirilir. Naxçıvan şəhərinin inkişafı və mövcud turizm potensialı da müasir turizm xidmətlərinin tətbiqini zəruri edir. Yeni açılan turist marşrutu bu istiqamətdə həyata keçirilən ilk tədbirdir. Ona görə də muxtar respublikada bu məsələ daim diqqət mərkəzində saxlanılmalı, turistlərə göstərilən xidmətin səviyyəsi yüksəldilməlidir.

Sonra Ali Məclisin Sədrinə Naxçıvan şəhərdaxili turist marşrutu barədə məlumat verilmişdir. Bildirilmişdir ki, marşrutun uzunluğu 14 kilometr, turun müddəti isə 2 saatdır. Bunun üçün ayrılan gəzinti avtobusu 30 yerlikdir. Avtobus “Təbriz” mehmanxanasının qarşısından hərəkətə başlayacaq, turistlər marşrut üzrə Naxçıvan şəhərinin tarixi abidələri, mədəniyyət obyektləri, görməli yerləri və müasir inkişafı ilə yaxından tanış olacaqlar.

Həmin gün Ali Məclisin Sədri Naxçıvan şəhərindəki 18-ci əsrə aid İsmayılxan hamamına da baxmış, bərpa olunan abidədə turistlərin istirahəti üçün lazımi şəraitin yaradılması, iaşə xidmətinin təşkilində yerli məhsullara üstünlük verilməsi tapşırığını vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın təsdiq edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 30 aprel 2016-cı il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 30 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması

## QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının (dövlət taxıl fondu üçün alınan buğda istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması qaydasını tənzimləyir.

1.2. Bu Qaydanın məqsədi kənd təsərrüfatı məhsullarının istehsalını və (və ya) emalını stimullaşdırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsinin prosedur və prinsiplərini, həmçinin bu məhsulların dəyərinin hesablanması ilə bağlı meyarları və digər prinsipləri müəyyənləşdirməkdir.

**2. Əsas anlayışlar**

2.0. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

2.0.1. ərzaq məhsulları – insanın təbii və ya emal olunmuş halda istifadə etdiyi bitki və ya heyvan mənşəli qida məhsulları;

2.0.2. satınalan təşkilat – dövlət büdcəsinin vəsaitləri hesabına ərzaq məhsullarını satınalan dövlət müəssisə və təşkilatları (idarələri);

2.0.3. tədarük və təchizat agenti – əsas məqsədi ərzaq məhsullarının istehsalçılarından və satıcılarından belə məhsulların alınmasını, tədarük edərək satınalan təşkilatlara təqdim olunmasını təmin edən hüquqi şəxs.

**3. Ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada satın alınması proseduru**

3.1. Ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada satın alınması proseduru aşağıdakı qaydada həyata keçirilir:

3.1.1. satınalan təşkilatlar növbəti il üzrə ərzaq məhsullarına tələbatları barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi formaya uyğun məlumatları hər il iyulun 1-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edirlər. Satınalan təşkilatlar tərəfindən növbəti il üzrə ərzaq məhsullarına tələbatlar həmin satınalan təşkilatlara bu məqsədlər üçün dövlət büdcəsindən ayrılmış vəsaitlər nəzərə alınmaqla müəyyən edilir;

3.1.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların qiymətləri və satınalma şərtləri (o cümlədən, satınalma dövriliyi) barədə elanı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi formada hər il avqustun 1-dək elektron portalda yerləşdirir;

3.1.3. satınalma qiymətləri elanın yerləşdirildiyi vaxt üçün ərzaq məhsullarının topdansatış bazar qiymətlərindən aşağı olmamalıdır. Ərzaq məhsullarının hər bir növü üzrə satınalma qiymətini Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat

*Ardı 2-ci səhifədə*

Nazirliyi müəyyən edir. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi rübdə bir dəfədən az olmayaraq ərzaq məhsullarının hər bir növü üzrə topdansatış bazar qiymətlərini müəyyən etmək üçün araşdırmalar aparır. Məhsulların qiyməti sonradan dəyişdikdə qiymətlərə yenidən baxılır;

3.1.4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi hər il sentyabrın 1-dək satın alınması nəzərdə tutulan ərzaq məhsullarının hər növü üzrə yerli istehsalçıların istehsal potensialı və onlar barədə məlumatları toplayır və elektron portalda yerləşdirir. Satın alınması nəzərdə tutulan ərzaq məhsulunu satmaq arzusunda olan istehsalçı öz adını elektron portalda aşkar etmədikdə, o, özü fərdi qaydada Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət edə bilər. Müraciət edildiyi halda həmin istehsalçı ilə bağlı məlumatlar dərhal elektron portala əlavə edilməli və müraciət edən şəxsə bu barədə məlumat verilməlidir. Ərzaq məhsullarının istehsalçıları həmin məhsulları təqdim etmək niyyəti (öz istəyi ilə təklif etdiyi qiymət) barədə hər il sentyabrın 1-dək bilavasitə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə məlumat verir və nazirlik 2 (iki) iş günü müddətində həmin satıcının adı və təklif etdiyi məhsullar barədə məlumatı (qiymət təklif edildiyi halda qiyməti də) elektron portalda yerləşdirir;

3.1.5. tədarük və təchizat agenti elektron portalda yerləşdirilən istehsalçıların fəaliyyətinin monitorinqini aparmaq və onlardan istehsal imkanları barədə yazılı və şifahi məlumatlar almaq hüququna malikdir. Tədarük və təchizat agenti istehsalçının elektron portalda yerləşdirilən istehsal həcmini təmin etmək imkanında olmaması barədə əsaslı faktlar əldə etdikdə, elektron portalda olan məlumatlarda düzəliş edilməsi üçün Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə və həmin istehsalçıya müraciət edir;

3.1.6. ərzaq məhsullarının alınmasına dair bu Qaydanın 3.1.2-ci yarımbəndi ilə müəyyən edilən elanın şərtlərinə uyğun gələn təklif həmin məhsullara tələbatdan çox olmadıqda, bütün iştirakçıların təklifləri qəbul edilir;

3.1.7. ərzaq məhsullarının alınmasına dair bu Qaydanın 3.1.2-ci yarımbəndi ilə müəyyən edilən elanın şərtlərinə uyğun gələn təklif həmin məhsullara tələbatdan çox olduqda yerli istehsalçılara üstünlük verilir;

3.1.8. ərzaq məhsullarının alınmasına dair bu Qaydanın 3.1.2-ci yarımbəndi ilə müəyyən edilən elanın şərtlərinə uyğun gələn təklif həmin məhsullara tələbatdan az olduqda, tədarük və təchizat agenti tələbatın təklifdən artıq hissəsini bu Qaydanın 3.1.3-cü yarımbəndində müəyyən edilmiş qiymətlər çərçivəsində digər şəxslərdən ala bilər, bu mümkün olmadıqda isə özü idxal edə bilər.

3.2. Tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçıları və satıcıları arasında hər il oktyabrın 1-dək növbəti il üçün müqavilə bağlanır.

3.3. Növbəti il üçün ərzaq məhsullarına dair tələbat müəyyən olunduqdan sonra satınalan təşkilatlar üzrə həmin məhsulların dəyərinin 25 faizindən az olmamaqla satınalan təşkilatlara avans məbləğinin ayrılması barədə oktyabrın 5-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin müəyyən etdiyi formada Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə məlumat verir.

3.4. Satınalan təşkilatlar imzalanmış müqavilənin bir nüsxəsini və avans məbləğinin ödəniş tapşırığını dövlət xəzinədarlıq orqanlarına hər il oktyabr ayının 5-dək təqdim edirlər. Qeyd olunan sənədlər dövlət xəzinədarlıq orqanlarına elektron qaydada da təqdim oluna bilər. Dövlət xəzinədarlıq orqanları hər il oktyabrın 10-dək avans məbləğini satınalan təşkilatların hesabına köçürürlər.

3.5. Satınalan təşkilatlar növbəti ildə alınacaq ərzaq məhsulları üçün ayrılmış vəsaitləri cari ilin oktyabrın 20-dək tədarük və təchizat agentinin hesabına köçürürlər.

3.6. Tədarük və təchizat agentinin aşağıdakı öhdəlikləri vardır:

3.6.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin elektron portalında göstərilən ərzaq məhsullarının istehsalçıları və ya satıcıları ilə növbəti il üçün cari ilin oktyabr ayının 1-dək müqavilələrin bağlanması;

3.6.2. satınalan təşkilatlarla növbəti il üçün cari ilin oktyabr ayının 1-dək müvafiq müqavilələrin bağlanması;

3.6.3. növbəti ildə təqdim ediləcək ərzaq məhsullarının istehsalçılarına və ya satıcılarına bu Qaydanın 3.1.3-cü yarımbəndində müəyyən edilmiş qiymətlərə uyğun olaraq həmin məhsulların (emal olunmuş ərzaq məhsulları istisna olmaqla) dəyərinin 25 faizinin oktyabrın 30-dək avans qismində ödənilməsi;

3.6.4. ərzaq məhsullarının satıcılardan qəbul edilməsi, satınalan təşkilata təqdim edilənədək saxlanması və həmin təşkilatlarla bağlanılmış müqavilədə müəyyən edilən qaydada topdansatış şərtlərlə təhvil verilməsi;

3.6.5. müqavilə şərtlərinə uyğun məhsulların satınalan təşkilatlara təqdim edilməsi;

3.6.6. ay ərzində alınmış ərzaq məhsullarının dəyərinin (avans qismində ödənilmiş məbləğ nəzərə alınmaqla) növbəti ayın 5-dək istehsalçılara və satıcılara ödənilməsi;

3.6.7. tədarük olunan ərzaq məhsullarının korlanma və məhv olmadan sığortalanması.

3.7. Tədarük və təchizat agentinin istehsalçılardan və ya satıcılardan aldığı ərzaq məhsullarının bu Qaydanın 3.1.3-cü yarımbəndinə uyğun müəyyən edilmiş qiymətlərinə və ya bu Qaydanın 3.1.8-ci yarımbəndinə uyğun olan faktiki idxal qiymətlərinə (idxal rüsumları nəzərə alınmaqla) tətbiq edilən ticarət əlavəsi 20%-dən çox ola bilməz.

3.8. Satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında bağlanılan müqaviləyə ərzaq məhsullarının tədarük və təchizat agentinin anbarlarından təhvilverilmə cədvəli əlavə olunmalıdır və təhvil dövriliyi (istifadə müddəti bir aydan az olan məhsullar və müqavilədə başqa cür razılaşdırılan hallar istisna olmaqla) ayda bir dəfədən çox olmamalıdır. Həmin cədvəl üzrə tədarük və təchizat agenti tərəfindən satınalan təşkilatlara ərzaq məhsullarının təhvili müqabilində satınalan təşkilatlar məhsulların təhvilverilmə tarixindən ən geci sonrakı təqvim ayının 10-dək təhvil alınmış məhsulun dəyərinin aşağıda göstərilən düstura uyğun olaraq, avans ödənişi nəzərə alınmaqla tədarük və təchizat agentinə ödənilməsini təmin edir:

ÖM = ƏD+TƏ-AV

ÖM – ödənilən məbləğ,

ƏD – təhvil alınmış ərzaq məhsullarının dəyəri,

TƏ – ticarət əlavəsinin məbləği,

AV – avans məbləğinin xüsusi çəkisi.

3.9. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə tədarük və təchizat agenti arasında, satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında və tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan müqavilələrin nümunəvi formaları Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti müəyyən edir.

**4. Yekun müddəalar**

4.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə tədarük və təchizat agenti arasında bağlanılmış müqavilənin surətini Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi 5 iş günü müddətində Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

4.2. Bu Qaydanın tələblərinə uyğun olaraq satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında, tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan müqavilələr barədə məlumatı tədarük və təchizat agenti Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi formada oktyabrın 10-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

4.3. Bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulan avans məbləği, həmin məbləğin tədarük və təchizat agentinə ödənilməsi müddətləri və şərtləri Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin birgə razılığı ilə dəyişdirilə bilər.

## “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda elmi-praktik konfrans



*Mayın 2-də Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyində “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransda Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev “İstiqlala gedən yol: 1969-1982-ci illərdə Azərbaycanda ictimai-siyasi inkişaf” mövzusunda çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyev bütün mənalı ömrünü canı qədər sevdiyi Azərbaycanın inkişafına, onun xoşbəxt gələcəyinə həsr edib. O, 1969-cu ildə birinci dəfə hakimiyyətə gəldikdən sonra keçmiş Sovet İttifaqına daxil olan ölkələr arasında geridə qalan, dövlət planlarını yerinə yetirə bilməyən Azərbaycanı qabaqcıl respublikalar sırasına yüksəldib. Azərbaycanın qızıl dövrü adlandırılan həmin illərdə respublikamızın sosial, iqtisadi, siyasi və mənəvi siması tamamilə dəyişib və vətənimiz yeni, müstəqil yaşamağa qadir olan bir ölkəyə çevrilib.

Vurğulanıb ki, dahi siyasətçi hakimiyyətdə olduğu illərdə Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə qoruyub saxlayıb. Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin əsas istiqamətlərindən biri də ermənilərin əsassız iddialarının qarşısının müxtəlif yollarla alınmasına yönəlib. Özündən əvvəlki rəhbərlər Azərbaycanın bəzi torpaq ərazilərini Ermənistana güzəştə getsələr də, dahi şəxsiyyət hakimiyyətə gəldikdən sonra həmin qərarların yerinə yetirilməsinin qarşısını alıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli “Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə Naxçıvan Muxtar Respublikasının iqtisadi yüksəlişi” mövzusunda çıxışında qeyd edib ki, ulu öndər həmişə qədim diyarın sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirib. 1969-cu ildən etibarən Naxçıvan Muxtar Respublikasının iqtisadi həyatında qısa müddətdə intensiv inkişaf meyilləri özünü göstərməyə başlayıb. Əgər muxtar respublika iqtisadiyyatına 1966-68-ci illərdə hər il orta hesabla 30,3 milyon manat vəsait yönəldilmişdirsə, 1969-70-ci illərdə bu vəsait hər il üçün orta hesabla 52,5 milyon manata çatdırılıb.

Vurğulanıb ki, həmin illərdə qədim diyarda bütün sahələrlə yanaşı, sənaye də sürətlə inkişaf edib. 1971-80-ci illərdə muxtar respublikada 970 milyon 129 min manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da həmin dövr üçün çox böyük göstəricidir. 1976-80-ci illərdə istehsal edilən sənaye məhsulunun həcmi 1961-75-ci illərdəkindən xeyli çox – 606,5 milyon manat olub. Həmin illərdə sənayedə əmək məhsuldarlığı 2 dəfə, məhsul istehsalı 261 faiz artıb. Muxtar respublikada istifadəyə verilən Naxçıvan Şüşə Qablar Zavodu, Naxçıvan Alt Trikotaj Fabriki Naxçıvanın iqtisadi inkişafına və yeni iş yerlərinin açılmasına əsaslı töhfələr verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Hüseyn Həşimli “Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarı və qurucusudur” mövzusunda çıxışında bildirib ki, ümummilli liderin 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gəlişi əhalinin böyük sevincinə səbəb olub. Naxçıvana gəlişindən az sonra, 1990-cı ilin avqustunda yerli gənclərlə görüşdə ulu öndərin dediyi aşağıdakı sözlər Onun əsas amalını konkret şəkildə ifadə edirdi: ***“Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir”.***

Qeyd olunub ki, 1990-cı il noyabrın 17-də 12-ci çağırış Naxçıvan MSSR Ali Sovetinin ilk sessiyası ulu öndər Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başlayıb. Həmin sessiyada təkcə Naxçıvan üçün deyil, ümumən Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olunub. Belə ki, sessiya Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “sovet sosialist” sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, milli istiqlal rəmzi olan üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul edib. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət də qaldırıb.

Diqqətə çatdırılıb ki, böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə həyata keçirilməsi ilə səciyyələnir. Belə ki, xalqın təkidli tələbi ilə hakimiyyətə gələn dahi şəxsiyyət 1993-cü ilin iyun ayından başlayaraq ölkədəki hərc-mərcliyə, anarxiyaya son qoyub, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıb, vətəndaş həmrəyliyini bərpa edib, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, Qarabağ münaqişəsinin ədalətli həlli, haqq işimizin dünyada tanıtdırılması istiqamətində mühüm tədbirlər həyata keçirib.

“Bu gün müstəqil Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin yolu ilə inamla irəliləyir”, – deyən Hüseyn Həşimli qeyd edib ki, ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, hörmətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə möhtəşəm uğurlar qazanır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da blokada şəraitinin yaratdığı çoxsaylı çətinliklərə baxmayaraq, gündən-günə çiçəklənir, həyata keçirilən böyük quruculuq işləri muxtar respublikamızın hərtərəfli inkişafını təmin edir.

Sonra konfrans iştirakçıları “Ulu torpaq, ulu öndər” filminə baxıblar.

Sonda Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanışlıq olub.

✍ **Rauf ƏLİYEV**

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi keçirilib



Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusuna həsr olunmuş növbəti – 205-ci məşğələsini giriş sözü ilə açan rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov dahi şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycanın müstəqilliyə qədərki dövrdə və müstəqillik illərindəki ictimai-siyasi həyatının bütün sahələrində reallaşdırdığı islahatlardan, əvəzolunmaz xidmətlərindən söz açıb.

Qeyd olunub ki, məhz ulu öndər Heydər Əliyevin ölkənin ictimai-siyasi, iqtisadi cəhətdən ağır və qarışıq dövründə nümayiş etdirdiyi cəsarəti, siyasi müdrikliyi, uzaqgörənliyi sayəsində taleyüklü qərarlar qəbul olunub, ölkədə siyasi stabillik bərqərar edilib, Azərbaycan dinamik inkişaf yoluna qədəm qoyub.

Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” adlı məruzəsində bildirib ki, ulu öndər Heydər Əliyevin 1969-cu ildə başlayan ölkəyə ilk rəhbərliyi dövründə Azərbaycan sürətlə inkişaf edərək Sovet İttifaqında ən qabaqcıl yerlərdən birini tutub. Məhz o illərdə müasir sənaye kompleksləri yaradılıb, kənd təsərrüfatı inkişaf etdirilib. Azərbaycan postsovet məkanında mədəniyyət, incəsənət sahələrində öz sözünü deyib. Ulu öndərin 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi hökm sürən dövrdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda sabitlik təmin edilib, vətəndaş müharibəsinə son qoyulub, qeyri-qanuni silahlı birləşmələr tərk-silah edilib və Azərbaycan islahatlar yoluna qədəm qoyub. Dövlətçiliyin də əsasları məhz o illərdə qoyulub. Bu gün ulu öndərin siyasi xətti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir, müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır.

**Nərmin CABBAROVA**

***Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1993-cü il 20 dekabr tarixli qərarı ilə hər il may ayının 3-ü Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü kimi qeyd olunur.***

*3 may Beynəlxalq Mətbuat və Söz Azadlığı Günüdür*

# Muxtar respublikada mətbuat və söz azadlığı təmin edilmişdir

Ümummilli liderimiz Heydər Əliyev müstəqil mətbuatı demokratiyanın əsas tələblərindən biri kimi dəyərləndirmiş, bu sahənin inkişafına xüsusi diqqət yetirmişdir. Ulu öndərin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ölkəmizdə söz, fikir və mətbuat azadlıqlarının təminatına əlverişli şərait yaratmış, senzura ləğv olunmuş, dövlətin mətbuat üzərində nəzarətinə son qoyulmuşdur. 1999-cu il dekabrın 7-də qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu isə bu sahədə fəaliyyəti tənzimləyən əsas hüquqi sənəd olmuş, Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və mətbuat azadlığı təsbit olunmuşdur. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ulu öndərimizin mətbuat və söz azadlığının inkişafına yönəlmiş siyasətini uğurla davam və inkişaf etdirir. Ölkə başçısının "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" 2008-ci il 31 iyul tarixli Sərəncamı və "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" 2009-cu il 3 aprel tarixli Fərmanı bu mənada mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında da azad mətbuatın inkişafı təmin edilmişdir. Son illər bütün sahələrdə əldə olunan inkişaf muxtar respublikanın kütləvi informasiya vasitələrini də əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 29 mart tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamı muxtar respublikanın kütləvi informasiya vasitələrinin fəaliyyətini genişləndirmiş, mətbuatın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Bu gün muxtar respublikada 2 televiziya, 2 radio, o cümlədən tədrisyönümlü "Universitet" televiziyası və "Nuhçıxan" radiosu fəaliyyət göstərir, 9 qəzet nəşr olunur. Kütləvi informasiya vasitələrində 400-dən artıq işçi çalışır.

2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması qəzetlərin günün tələblərinə uyğun nəşrinə şərait yaratmışdır. Artıq muxtar respublikada bütün qəzet və jurnallar yüksək poliqrafik keyfiyyətdə nəşr olunur. Ali Məclis Sədrinin 2011-ci il 21 iyul tarixli Sərəncamı ilə "Şərq qapısı" qəzeti əməkdaşlarının əməkhaqları orta hesabla 50 faizədək artırılmış, redaksiya yeni xidməti avtomobillərlə təmin olunmuşdur.

Muxtar respublikada mətbuatın inkişafına göstərilən diqqət və qayğı elektron medianı da əhatə etmişdir. Xüsusilə müasir standartlara cavab verən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi bu sahədə yeni imkanlar açmış, teleradioların yayım keyfiyyəti xeyli yüksəlmişdir. Son illər Naxçıvan Dövlət Televiziyası və Radiosu, "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosunun fəaliyyəti üçün lazımi şərait yaradılmış, ən müasir rəqəmsal multimedia avadanlıqları quraşdırılmışdır. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, yeni studiya avadanlıqları, videokameralar, avtomobillər, montaj və kompüter dəstləri alınmış, teleradio ən müasir texniki avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublikada yeni yayım avadanlıqlarının tətbiqi analoq yayımın daha keyfiyyətli rəqəmsal yayımla əvəzlənməsinə şərait yaratmış, Naxçıvan televiziyası 2015-ci ildən yüksək keyfiyyətlə – HD formatda yayımlanmağa başlamışdır. Ötən il teleradionun texniki imkanları daha da artırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq məsələləri ilə bağlı verdiyi tapşırıqların İcra Planı"na əsasən televiziyada 4 videomontaj, 5 səsyazma otağı yaradılmış, binanın girişi və qarajlar yenidən qurulmuş, elektron təhlükəsizlik sistemləri quraşdırılmış, 2 yeni çəkiliş pavilyonu yaradılmışdır. Bununla da televiziyada olan çəkiliş pavilyonlarının sayı virtual studiya ilə birgə 7-yə çatmışdır. Ötən il 80 terebayt həcmində yeni elektron arxiv, səmadan çəkiliş üçün dron videokamera, mobil elektron lövhə, müasir işıq və səs sistemləri, montaj otaqları üçün soyutma sistemləri alınmış, texniki imkanlar daha da genişləndirilmiş, televiziyanın efir vaxtı 1 saat artırılmışdır.

Muxtar respublikada informasiya cəmiyyətinin formalaşdırılması sahəsində görülən işlər mətbuatın imkanlarının daha geniş arealda yayılmasına zəmin yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq informasiya və kommunikasiya texnologiyalarının imkanlarından bütün sahələrdə, o cümlədən mətbuatda geniş istifadə olunur. 2011-ci ildən etibarən "Şərq qapısı" qəzetinin internet saytı fəaliyyətə başlamış, qəzetin elektron arxiv bazası yaradılmışdır. Yaxın günlərdə isə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi internet üzərindən yayıma başlayacaqdır. Bunun üçün lazımi tədbirlər görülmüş, yeni avadanlıqlar alınmış, komitənin internet saytı yaradılmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasında məlumat azadlığı və onun təmin olunması dövlətimizin ali məqsədlərindən biri kimi təsbit edilmişdir. Məlumat azadlığının tərkib hissəsi isə informasiya əldə etmək hüququdur. 2011-ci il dekabrın 29-da "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilərək "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin Naxçıvan Muxtar Respublikasında yerinə yetirilməsinə nəzarət Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsman) həvalə edilmişdir. Bu isə məlumat azadlığının və informasiya əldə etmək hüququnun daha effektiv müdafiə və təmin edilməsinə imkan verir.

Müasir qloballaşma dövründə kütləvi informasiya vasitələrinin başlıca vəzifəsi cəmiyyəti məlumatlandırmaq, zəruri informasiyalarla təmin etməkdir. Başqa sözlə, mətbuat və media nümayəndələri insanların informasiya əldə etmək hüququnun əsas təminatçılarıdır. Bu mənada jurnalistlərin üzərinə düşən, obyektiv və qərəzsiz məlumat yaymaq kimi mühüm və məsuliyyətli vəzifələr düşür. Muxtar respublikada fəaliyyət göstərən jurnalistlər onlar üçün yaradılan şəraitdən səmərəli istifadə edərək cəmiyyətin informasiyaya olan ehtiyacının dolğun ödənilməsində səylə çalışır, muxtar respublikamızın sosial-iqtisadi və ictimai-mədəni həyatının, quruculuq və müasir inkişaf salnaməsinin yaradılmasına, milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə öz töhfələrini verirlər.

Bu gün sərbəst və müstəqil fəaliyyət göstərən muxtar respublika jurnalistləri cəmiyyət həyatının müxtəlif sahələrinə aid aktual problemlərə, ictimaiyyəti narahat edən mövzulara geniş yer verir, televiziya və qəzetlərdə analitik və tənqidi materiallarla çıxış edir, onların həlli yollarının araşdırılmasında fəal iştirak edirlər. Son illər "Şərq qapısı" qəzetində və Naxçıvan Dövlət Televiziyasında onlarla tənqidi material hazırlanaraq oxucu və tamaşaçılara təqdim olunmuşdur.

Muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə müasir poçt xidmətlərinin təşkil olunması dövri mətbuatın oxuculara vaxtında çatdırılmasını təmin edir. Bütün bunlar insanların informasiya əldə etmək hüququnun təmin olunması sahəsində görülən işlərin tərkib hissəsidir. Digər bir tərəfdən informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada internet şəbəkəsinin əhatə dairəsini xeyli genişləndirmişdir. Artıq ən ucqar kəndlərdə belə genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir. Bir zamanlar informasiya blokadasına salınan Naxçıvan bu gün dünyanın hər yerində tanınır, ölkə və dünya mediasında muxtar respublika haqqında müxtəlif dillərdə məlumatlar yayımlanır. Bu gün Naxçıvanda ölkəmizin nüfuzlu televiziya və informasiya agentliklərinin müxbir postları fəaliyyət göstərir, muxtar respublikada baş verən yenilikləri, sosial-iqtisadi inkişafı, ictimai-mədəni hadisələri, beynəlxalq tədbirləri geniş tamaşaçı, dinləyici və oxucu auditoriyasına çatdırırlar. Həmçinin hər il onlarla xarici jurnalist Naxçıvanda olur, bu qədim diyarla bağlı silsilə yazı və verilişlər hazırlayırlar.

Jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika kafedrası fəaliyyət göstərir, hər il onlarla gənc jurnalist yetişir. Həmçinin buradakı media mərkəzində fəaliyyət göstərən "Universitet" televiziyası və "Nuhçıxan" radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Bu gün artıq muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışanların böyük əksəriyyətinin gənclərdən ibarət olması bunu bir daha təsdiq edir.

Muxtar respublikada mətbuat sahəsində çalışanların əməyi daim yüksək qiymətləndirilir. Qəzet və televiziyaların yubileyləri qeyd olunur, jurnalistlərin əməkhaqları artırılır, onlar Prezident təqaüdünə, müxtəlif fəxri adlara və dövlət mükafatlarına layiq görülürlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Mətbuat işçiləri dövrün salnaməçiləridir. Dövr dəyişildikcə mətbuatın qarşısına qoyulan tələblər də dəyişilir. Qəzet və televiziya ictimai nəzarət funksiyasını həyata keçirən orqanlardır. Bu mənada hər bir jurnalist ictimai nəzarətçi kimi öz fəaliyyəti ilə cəmiyyətin inkişafına töhfələr verməlidir".*** Ali Məclis Sədrinin bu tövsiyələri kütləvi informasiya vasitələrinin qarşısına mühüm vəzifələr qoyur. Mətbuat işçiləri bundan sonra da tarixi-mədəni irsimizin, milli dəyərlərimizin fədakar təbliğatçısı olacaq, ümummilli məqsədlərin təbliği və vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edəcəklər.

**"Şərq qapısı"**

# Muzeyləri ziyarət davam edir



***Aprelin 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində olmuşlar.***

Bildirilmişdir ki, muzey görkəmli ədiblərimizin həyat və yaradıcılığının öyrənilməsi, elmi cəhətdən tədqiqi və təbliği sahəsində fəaliyyət göstərir. Muzeyin ekspozisiyasında çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixi ilə yaxından tanış olmaq mümkündür. Burada saxlanılan və nümayiş etdirilən qiymətli əlyazmalar, təbiqi və təsviri sənət nümunələri, kitablar, qəzet və jurnallar, xatirə əşyaları, Azərbaycan ədəbiyyatının yaradıcıları haqqında məlumatlar, onların əsərləri bu baxımdan etibarlı mənbədir. Muzeyə gələnlər Azərbaycan ədəbiyyatının klassik və müasir nümayəndələrinin həyat və yaradıcılığını əks etdirən guşələrlə zəngin olan ekspozisiyada naxçıvanlı şair və yazıçıların yaradıcılıqları ilə də tanış ola bilirlər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin, ixtisaslaşdırılmış məhkəmələrin də kollektivləri Ədəbiyyat Muzeyində olmuşlar.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Naxçıvan Muxtar Respublikası Maliyyə və Vergilər nazirliklərinin kollektivləri Heydər Əliyev Muzeyini, Fövqəladə Hallar Nazirliyinin, Ədliyyə Nazirliyinin və Dövlət Gömrük Komitəsinin əməkdaşları Dövlət Bayrağı Muzeyini, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyini, Əmək və Əhalinin Sosial Müdafiəsi, Nəqliyyat nazirliklərinin kollektivləri Cəlil Məmmədquluzadənin ev-muzeyini, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Xatirə Muzeyini, Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar, Səhiyyə nazirliklərinin kollektivləri Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksini, Standartlaşdırma, Metrologiya və Patent, Ailə, Qadın və Uşaq Problemləri, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət komitələrinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət etmişlər. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri Bəhruz Kəngərlinin ev-muzeyində, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, "Şərq qapısı" qəzeti redaksiyasının, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Statistika Komitəsinin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyində olmuşlar.

**"Şərq qapısı"**

# Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə növbəti görüş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən, Naxçıvan Dövlət Universitetinin Ərəb dili ixtisası Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin hamiliyinə verilib. Universitetin bu ixtisas üzrə 2-ci və 4-cü kurs tələbələri Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarədə olublar. İdarənin rəisi Vüqar Babayev bildirib ki, dini dəyərlərə muxtar respublikamızda yüksək ehtiramla yanaşılır. Müqəddəs sayılan ünvanlar, qədimdən mövcud olan pirlər, məscidlər təmir edilir, yeni məscidlər inşa olunur. İnsanların dini azadlıqları qorunur. "Multikulturalizm ili"ndə dini dəyərlərin gənclər tərəfindən başa düşülən şəkildə əxz olunması, həmin dəyərlərə əməl edilməsi diqqət mərkəzində saxlanılır. Çünki multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcud olub. Hazırda isə multikulturalizm ölkəmizdə alternativi olmayan həyat tərzidir. Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, dostluq şəraitində yaşadığı məkan olub, burada başqa dinlərə də hörmətlə yanaşılıb.

Vüqar Babayev diqqətə çatdırıb ki, bu gün muxtar respublikamızda 217 məscid, 26 pir və ziyarətgah mövcuddur. Onların fəaliyyətinə hərtərəfli şərait yaradıldığını bildirən idarə rəisi rəhbərlik etdiyi qurumun iş prinsipləri barədə tələbələrə geniş məlumat verib. Tələbələr idarənin kitabxanası ilə yaxından tanış ediliblər.

Sonra tələbələr Heydər məscidində olublar. Burada Naxçıvan Muxtar Respublikasının qazisi Sahib Məmmədov muxtar respublikada yaradılmış dini icmaların fəaliyyəti, iş prinsipləri barədə danışıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Muxtar MƏMMƏDOV**

# Mərkəzin budəfəki qonaqları Babək məktəbliləri olub

## Ağbulaq İstirahət Mərkəzindən növbəti reportaj

***Saat $9^{00}$-ı göstərir. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşı Qəzənfər Abdullayev siyahı üzrə məktəblilərin adını dəqiqləşdirdikdən sonra onlar üçün ayrılmış iki avtobus yola düşür. Məktəblilərin həyəcanını hiss etmək çətin deyil. Onların əksəriyyəti Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir, gedirlər. Yolboyu görünən mənzərələri, füsunkar Şahbuz şəhərini böyük maraqla izləyən məktəblilərə baxarkən heç də uzaq olmayan keçmişi xatırlayıram.***







Keçən əsrin 90-cı illərinin əvvəllərinin məktəblisinin çəkdikləri çətinliklər gözlərim önündə canlanır. Adi tələblərə cavab verməyən soyuq sinif otaqları, köhnəlmiş tədris avadanlıqları təhsil ocaqlarında tədrisin səviyyəsini yüksəltməyə imkan vermirdi. Ümumilikdə, muxtar respublikada müasir tələblərə cavab verən məktəb binaları barmaqla sayılacaq qədər az idi. İndi isə təkcə Naxçıvan şəhərində deyil, ən ucqar dağ kəndlərində belə, ən müasir məktəb binaları tikilir, onların maddi-texniki bazaları gücləndirilir, yeni informasiya texnologiyaları tətbiq edilir. Məktəblilər pulsuz dərsliklərlə təmin olunurlar. Şagirdlərin asudə vaxtlarının səmərəli keçməsi də diqqət mərkəzində saxlanılır. Şahbuz rayonunda istifadəyə verilmiş Ağbulaq İstirahət Mərkəzi artıq məktəblilərin sevimli ünvanına çevrilib. Hər il müxtəlif təbəqədən olan məktəblilər bu mərkəzdə asudə vaxtlarını səmərəli keçirirlər. Artıq bu ilin aprel ayının əvvəllərindən sınaq imtahanlarında yüksək nəticələr göstərənlərin və aztəminatlı ailələrin uşaqlarının Ağbulaq İstirahət Mərkəzində istirahətinə start verilib. Mərkəzin budəfəki qonaqları Babək rayonunun məktəbliləridir. Qeyd edək ki, bu layihə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, muxtar respublika Təhsil, Gənclər və İdman nazirlikləri, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən həyata keçirilir.

Budur, məktəblilərin sevinclə üz tutduqları Ağbulaq İstirahət Mərkəzi. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev şagirdlərə proqram haqqında qısa məlumat verir, onlara xoş və mənalı istirahət arzulayır. Şagirdlər əşyalarını yerləşdirdikdən sonra istirahət mərkəzinin mini-futbol meydançasında komandaların yarışı başlayır, məktəblilərin futbol idman növünə böyük maraq göstərməsi elə bu yarışlar zamanı ortaya çıxır. Belə ki, komandalar qalib gəlmək üçün var-qüvvələrini nümayiş etdirirlər.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Murad Babayev molbert arxasına keçir. Bütün şagirdlər rəssamın nə çəkdiyini maraqla izləyirlər. Bir azdan şagirdlər rəssamın çəkdiyi rəsmə baxırlar. Bu, Ağbulaq İstirahət Mərkəzidir.

Gənc rəssam Muradla söhbətləşirəm: – Şahbuz rayonundan olsam da, ilk dəfədir, Ağbulağa gəlirəm. Buranın təbiəti məni valeh etdi. Dağın sinəsi ilə çəkilmiş yolla irəlilədikcə mənə elə gəlirdi ki, qartal yuvasına qalxırsan. Hündürlüyə qalxdıqca Şahbuz rayonunun bu qol üstündəki kəndləri aşağıda qalır. Bu mənzərəyə baxmaqdan doymursan. Şair istəyir ki, bu gözəlliklərə şeir qoşsun, bəstəkar sorağındadır ki, nəğmə bəstələsin. Mən də rəssam olaraq bu gözəlliyi tabloya çevirdim.

Şam yeməyindən sonra şagirdlər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını əks etdirən sənədli filmə baxırlar. Şagirdlərin ən çox diqqətini çəkən isə muxtar respublikada yaradılan istehsal sahələri olur. Hiss edilir ki, onların bu haqda az məlumatları var. 15-16 yaşlı bu gənclər xoşbəxtdirlər. Ona görə ki, onlar muxtar respublikanın ən inkişaf edən bir dövründə təhsil alıb yaşayırlar. Heç bir çətinlik görmədən. Onlar bu filmdə muxtar respublikanın yaşadığı çətin günləri də izləyirlər. 22 il bundan əvvəl həmyaşıdlarının hansı çətinliklərlə üzləşdiklərinin şahidi olurlar. Bugünkü məktəblilərin yalnız bir arzusu var: hərtərəfli gənc kimi yetişmək, tələbə adını qazanmaq və müstəqil Azərbaycan dövlətinə layiqli vətəndaş olmaq.

Axşam uşaqlar mərkəzin geniş və işıqlı, hər cür şəraitə malik otaqlarına istirahətə çəkilirlər. Onlar sabah keçirəcəkləri günün arzusu ilə şirin yuxuya gedirlər.

Günəş dağların ardından boylanmaqdadır. Yuxudan oyanan uşaqlar yavaş-yavaş idman meydançasına toplaşırlar. Səhər yeməyi başa çatdıqdan sonra onlar üçün əyləncəli oyun və viktorinalar, şeir və rəsm müsabiqələri təşkil edilir.

Müəllim və şagirdlərlə həmsöhbət oluram. Babək rayonunun Çeşməbasar kənd tam orta məktəbinin müəllimi Zülfəli Əliyev təəssüratlarını bizimlə belə bölüşür:

– Belə bir yerdə həm müəllimlərin, həm də şagirdlərin istirahətinin təşkil edilməsi bizim böyük sevincimizə səbəb olub. Burada müxtəlif məktəblərdən gələn şagirdlər bir-birini tanıdılar, gözəl dostluqlar quruldu, bilik müzakirələri aparıldı. Həm də onlar yaxşı istirahət etdilər. Belə gəzintilərin təşkil edilməsi həm də məktəblilərin muxtar respublikamızı yaxından tanımalarına imkan yaradır. Bu gün müşahidə apardım, şagirdlərimizdə dərs yorğunluğu qalmayıb. Bura gələn şagirdlərin əksəriyyəti dərslərini yaxşı oxuyan şagirdlərdir. Digər məktəblilər də yaxşı oxuyacaqlar ki, onlar da bu gün bura istirahətə gələn şagirdlərdən olsunlar. Görülən bütün bu işlərdə əsas məqsəd gələcəyimiz olan uşaqların sağlam, bilikli, vətənpərvər gənclər kimi yetişdirilməsindən ibarətdir. Mən bütün müəllimlər adından belə tədbirlərin keçirilməsinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə dərin minnətdarlığımı bildirirəm.

Söhbətimizə qoşulan Payız kənd tam orta məktəbinin müəllimi Elxan Babazadə məktəblilərə belə qayğını ölkəmizin gələcəyinə göstərilən qayğı kimi dəyərləndirdi. O dedi ki, muxtar respublikada son illərdə məktəblilərin, yeniyetmə və gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, onların dövlətçiliyimizə və müstəqilliyimizə sədaqət ruhunda tərbiyə olunması, asudə vaxtlarının səmərəli keçirilməsi üstün istiqamət verilən sahələrdən birinə çevrilib. Təbii ki, bu da hər bir müəllimi ürəkdən sevindirir.

Məktəbli Zeynəb İbrahimova ilə söhbətləşirəm:

– Mən Şəkərabad kənd tam orta məktəbinin X sinfində oxuyuram. Muxtar respublikanın heç bir rayonunda olmamışam. Şahbuz haqqında müəllimlərimdən eşitmişdim. Burada şagirdlərin istirahəti üçün hər cür şərait var. Çox yaxşı anlar keçirdik. Gələn bazar sınaq imtahanı olacaq. Ağbulaq İstirahət Mərkəzində dincəlmək bu sınaq imtahanına hazırlaşmaq üçün mənə böyük stimul oldu. Sınaq imtahanlarında 500-dən yuxarı bal toplayıram. Hədəfim 600-ü keçməkdir. Buna nail olacağıma inanıram.

– Bəs burada ən çox diqqəti çəkən nə oldu? – sualı ilə şagirdlərə müraciət edirəm. Sualımı Xeyrənsə Qurbanova cavablandırır:

– Mən Nehrəm kənd 3 nömrəli tam orta məktəbin IX sinif şagirdiyəm. Ağbulaq İstirahət Mərkəzinin yerləşdiyi məkan mənim diqqətimi çəkdi. Mərkəzdə qədim əl işləri nümayiş etdirilir. Burada gördüyüm qədim xalça çox xoşuma gəldi. Xalça toxumağa böyük həvəsim var. Kursa yazılmışam. Bu yay kurslarda iştirak edəcəyəm.

Məktəbli idmançı Əli Əlizadə ilə söhbətləşirəm. O, Şıxmahmud kənd tam orta məktəbinin VII sinif şagirdidir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi yarışda 41 kiloqram çəki dərəcəsində muxtar respublika çempionu olub. Hazırda Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbində idmanın sirlərinə yiyələnir. Ən böyük arzusu Azərbaycan və dünya çempionu olmaqdır. O, buradakı istirahətin ona xoş təsir bağışladığını bildirir.

Məktəblilərdən Vahid Bağırov (Nehrəm), Əfruz Zamanova (Naxışnərgiz), Hüseyn Zamanlı (Naxışnərgiz), Tural İmanov (Güznüt), Nail İsmayılov (Vayxır) və başqaları burada gördüklərindən razılıqlarını bildirirlər.

*Məktəblilərin Ağbulaq İstirahət Mərkəzinə səfəri başa çatır. Onlar Naxçıvan şəhərinə yola düşürlər. Qeyd edək ki, tədbir bu il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən keçirilir. Aprel ayının 2-dən start verilən layihə çərçivəsində, ümumilikdə, 405 şagirdin Ağbulaq İstirahət Mərkəzində istirahəti nəzərdə tutulub. Layihə hər həftənin şənbə və bazar günləri olmaqla, iyun ayının 5-dək davam edəcək.*

**Sara ƏZİMOVA**

# Yaşıllıqlara aqrotexniki qulluq göstərilməsi təbiətin zənginləşdirilməsi qədər əhəmiyyətlidir



***Muxtar respublikamızda cari ildə də iməciliklər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir.***

Aprelin 30-da keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu. Həmin gün iməciliyə 23 min 850 nəfər çıxmış, ümumilikdə, 9 min 140 ədəd həmişəyaşıl ağac və bəzək kolları əkilmişdir.

Həmin gün Naxçıvan şəhərinin sakinləri park və xiyabanlarda 20 ədəd həmişəyaşıl ağac, 80 ədəd gül kolu əkmiş, Naxçıvan Sement Zavodunun və avtobus parkının yaxınlığında, müəssisə və təşkilatların ərazilərində yaşıllıq sahələrinə qulluq etmişlər.

Şərur rayonunda da iməciliklər mütəşəkkil keçirilmişdir. Belə ki, rayon mərkəzindəki Heydər Əliyev Parkında 5800 ədəd, Gümüşlü kənd tam orta məktəbinin həyətində 100 ədəd gül kolu əkilmiş, Gümüşlü və Xanlıqlar kəndlərində ağaclara aqrotexniki qulluq göstərilmişdir.

İməcilik günü babəklilər Yarımca-Qahab yolunun kənarlarında, Şıxmahmud və Güznüt kəndlərində çalışmışlar.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər davam etdirilmişdir. Belə ki, Naxçıvan-Ordubad magistral yolunun Aza, Dəstə, Aşağı Əylis kəndləri hissəsində ağacların dibləri alaq otlarından təmizlənərək suvarılmışdır.

Culfalılar rayonun müəssisə və təşkilatlarının yaşıllıq sahələrində çalışmışlar.

Kəngərli rayonunun sakinləri Şəhidlər abidəsinin ətrafına 3000 ədəd, Xok kəndində 160 ədəd gül kolu əkmiş, Xok-Şahtaxtı kəndləri yolunun ətrafında yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şahbuzlular Naxçıvan-Batabat magistral yolunun kənarlarındakı yaşıllıqlarda çalışmışlar.

Sədərəklilər Heydərabad qəsəbəsindəki 5 hektarlıq alma bağında, Qaraağac kənd tam orta məktəbinin həyətində və Gömrük İdarəsinin yaşıllıq zolağında aqrotexniki tədbirlər həyata keçirmişlər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

**Xəbərlər şöbəsi**

*Gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında biliyin və elmin nüfuzunu artırmaq, Azərbaycanın zəngin milli mədəniyyətini və tarixini təbliğ etmək, eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən "Xəmsə" milli intellektual oyununun VIII Azərbaycan çempionatı başa çatıb. Gəncə şəhərində keçirilən yarışda Naxçıvan Muxtar Respublikasını "Əlincə" və "Savalan" komandaları təmsil edib.*

# Komandamız Azərbaycan çempionatında ikinci olub

Zona seçim turunun mükafatçısı olan "Əlincə" komandası respublika çempionatında uğurla çıxış edib. Gərgin keçən mübarizənin ilk mərhələsində "A" qrupunda ikinci olan komandamız (6199 xal) ikinci mərhələyə vəsiqə qazanıb. Reqlamentə əsasən, bu mərhələyə yüksələn 16 komanda 4 qrupda mübarizə aparmalı olub. "Əlincə" komandası "B" qrupunda da 6400 xal toplayaraq yarımfinala vəsiqə qazanıb. Bu mərhələni də uğurla adlayan komandamız dördlü finalda Bakı Dövlət Universiteti, "Prometey" (Abşeron) və "Feniks" (İmişli) komandaları ilə mübarizə aparmaq hüququ qazanıb. Final mərhələsində isə yalnız Bakı Dövlət Universitetinin komandasından (6301 xal) geri qalan "Əlincə" (5699 xal) komandası Azərbaycan çempionatını ikinci pillədə başa vurub. Komandanın üzvü Seymur Mütəllimzadə isə çempionatın "Ən yaxşı oyunçu"su adını qazanıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi "İlin ən yaxşı gənclərlə işləyən qurumu" adına layiq görülüb.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 337